MMC "Gürcüstan Meliorasiyası" kənd təsərrüfatı sahələri üçün suvarma və drenaj xidmətləri göstərən şirkətdir. Şirkətin xidmətlərinə su elektrik stansiyaları, müəssisələr və gölməçələr üçün su təchizatı, xüsusi texnika və mobil portativ nasos-aqreqatla xidmətin göstərilməsi daxildir. Xidmətlər ölkə üzrə 19 xidmət mərkəzi vasitəsilə həyata keçirilir.

**Xidmətlər**

- Suvarma (torpaqların süni suvarılması üzrə tədbirlər sistemi);
- Drenaj (arxlar, kanallar və ya yeraltı sistem vasitəsilə bataqlıq torpağın qurudulması);
- Gölməçə (gölməçə/balıq təsərrüfatı üçün su təchizatı);
- Su elektrik stansiyalarının su təchizatı;
- Müəssisəyə su təchizatı.
- Xüsusi avadanlıqla xidmətlərin göstərilməsi.
- Mobil portativ nasos-aqreqatla xidmətin göstərilməsi.

**Tariflər**

- Şərqi Gürcüstan Suvarma - 1 ha üçün 75 lari (ƏDV daxil);
- Qərbi Gürcüstan Suvarma - 1 ha üçün 45 lari (ƏDV daxil);
- Şərqi/Qərbi Gürcüstan drenajı - 1 ha üçün 40 lari (ƏDV daxil);
- Gölməçə (gölməçə/balıq təsərrüfatı üçün su təchizatı) - 1ha (güzgü səthi) üçün 150 lari (ƏDV daxil).
- SES-lərə suyun verilməsi - müqavilənin şərtlərinə uyğun olaraq.
- Müəssisəyə suyun verilməsi - müqavilənin şərtlərinə uyğun olaraq.
- Xüsusi texnika ilə xidmətlərin göstərilməsi - müqavilənin şərtlərinə uyğun olaraq.
- Mobil portativ nasos-aqreqatla xidmətin göstərilməsi - müqavilənin şərtlərinə uyğun olaraq.

Verilən tariflər birdəfəlikdir və ərizədə/müqavilədə göstərilən müddət ərzində etibarlıdır.

**Meliorasiya xidmətinin şərtləri:**

- Meliorasiya xidmətlərini almaq üçün şirkətin xidmət mərkəzlərinə müraciət edin və ərizəni doldurun;

**İnzibati Xətalar Məcəlləsinə əsasən, ərizə qeydiyyata alınmadan meliorativ infrastrukturdan istifadə cərimələnməyə səbəb olur:**

- **Fiziki şəxs 250 lari;**
- **Hüquqi şəxs 500 lari.**

**Fəaliyyətlər təkrar edildikdə qeyd olunan məbləğlər ikiqat artırılacaq.**

**Həmçinin, sizdən ərizənin qeydiyyatı olmadan alınan xidmətlərin dəyəri məbləğində şirkətə dəyən ziyanın ödənilməsi tələb olunacaq.**

**Müraciətin ləğvi**

- Xidməti almazdan əvvəl xidmətdən imtina üçün ərizəni təqdim etməlisiniz;
- Suvarılan sahənin korreksiyası üçün ərizə yalnız xidmətin aparılmadığı sahə üzrə verilməlidir;
- Ərizə ilə müəyyən edilmiş müddətdə xidmət göstərilə bilmədikdə, xidmətin alındığı ilk tarixdən sonra 10 gün ərzində müvafiq xidmət mərkəzinə yazılı müraciət etməlisiniz.

**Xidmət haqqının ödənilməsi şərtləri**

- Suvarma/drenaj xidmətlərinin göstərilməsinin birinci dövrü yanvarın 1-dən sentyabrın 30-dək tələb olunduqda, ödəniş cari ilin oktyabr ayının 1-dən gec olmayaraq ödənilməlidir;
- Suvarma/drenaj xidmətlərinin göstərilməsinin birinci dövrü oktyabrın 1-dən dekabrın 31-dək tələb olunduqda, ödəniş cari ilin dekabr ayının 31-dən gec olmayaraq ödənilməlidir;
- Gölməçə təsərrüfatının su təchizatı xidməti haqqı cari ilin dekabr ayının 10-dək ödənilməlidir.

  **Əks halda, hər gecikmiş gün üçün sizdən ödənilməmiş məbləğin 0,1%-i məbləğində cərimə tutulacaq.**

**İstifadəçi tərəfindən xidmət haqqı ödənilərkən (bank operatoru vasitəsilə hesaba pul daxil edilməsi və yatırılması zamanı) ödənişin təyinat yerində aşağıdakı məlumatlar göstərilməlidir:**

- Abunəçi nömrəsi;
- Abunəçinin adı və soyadı;
- Abunəçinin şəxsiyyət/identifikasiya nömrəsi;
- Ərizə/müqavilə nömrəsi.

**Bank hesabları:**

SS "Bank of Georgia" GE58BG0000000182323100

SS "Liberty Bank" GE54LB0113111469652000

SS "TBC Bank" GE42TB7484736020100003

**Xidmət şərtlərinə ətraflı baxın** www.ag.ge

**Meliorasiya xidmətləri ilə bağlı məlumat almaq üçün qaynar xətt ilə əlaqə saxlayın: 2 00 10 00**